**Yardımlıda fəaliyyət göstərən ictimai iaşə obyektində nöqsanların aşkarlanmasına dair məlumat**

**(30 avqust 2023)**

Vətəndaş şikayəti əsasında Agentlik əməkdaşları tərəfindən Yardımlı rayonunun Ərus kəndi ərazisində yerləşən və Abasət Məlik oğlu Xudiyevə məxsus "Gölüstü" istirahət mərkəzinin restoranında plandankənar yoxlama keçirilib. Yoxlama zamanı ictimai iaşə obyektinin qida təhlükəsizliyi qeydiyyatından keçmədən fəaliyyət göstərdiyi, həmçinin qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların və sanitariya norma və qaydalarının tələblərinin pozulduğu aşkar olunub. Obyektdə mütəmadi olaraq müvafiq təmizlik işlərinin aparılmadığı, işçi heyətin ilkin və dövri tibbi müayinələrdən keçmədiyi və xüsusi geyimlə təmin edilmədiyi və digər nöqsanlar müəyyən olunub.

Aşkarlanmış nöqsanlarla bağlı protokol tərtib olunub və nöqsanlar aradan qaldırılanadək obyektin fəaliyyəti müvəqqəti məhdudlaşdırılıb.